# KİRAYƏ MƏNZİLİN VERİLMƏ ŞƏRTLƏRİ

| **KİRAYƏ MÜQAVİLƏSİ** | |
|---|---|
| Minimal müddət | 3 il |
| Maksimal müddət | 25 il |
| Yaşa görə maksimal müddət | son ödəniş tarixinə yaş 70 yaşdan çox olmamalı |
| Qabaqcadan ödəniş | aylıq ödənişin ən azı 12 misli |
| Ödəniş valyutası | Azərbaycan manatı |
| Kirayə hüquqlarının ötürülməsi | Kirayə müqaviləsi üzrə hüquq və öhdəliklərin ötürülməsi üçün müraciət həmin kirayə müqaviləsinin qüvvəyə mindiyi tarixdən 12 aydan tez edilə bilməz |
| Vaxtından əvvəl tam ödəniş | Kirayə müqaviləsi bağlanan gündən |

| **KİRAYƏÇİ** |
|---|
| Azərbaycan Respublikasının vətəndaşı olmalı |
| Məhkumluğu olmamalı |
| Müraciət anına vaxtı keçmiş öhdəlikləri olmamalı |
| Müraciət anına yaşı 60-dan yuxarı olmamalı |
| Rəsmi gəlirlərə malik olmalı |
| Bir şəxs eyni zamanda Fond qarşısında yalnız bir aktiv kirayə müqaviləsi üzrə kirayəçi və bir aktiv kirayə müqaviləsi üzrə gəlirləri nəzərə alınan şəxs qismində çıxış edə bilər. Ailə birliyinə münasibətdə isə ər və ya arvad eyni zamanda Fond qarşısında yalnız bir aktiv kirayə müqaviləsi üzrə kirayəçi və hər biri ayrılıqda bir aktiv kirayə müqaviləsi üzrə gəlirləri nəzərə alınan şəxs qismində iştirak edə bilər. |

| **YAŞAYIŞ SAHƏSİ** |
|---|
| 2013-cü il 1 yanvar tarixindən sonra inşa edilməlidir |
| Alış anına standartlara uyğun tam təmirli olmalıdır, habelə elektrik enerjisi, qaz və su ilə təchiz olunmalıdır |
| İnfrastruktur obyektlərə (nəqliyyat, səhiyyə, iaşə, təhsil və s.) yaxın olmalıdır |
| Sakinlərin istirahəti üçün həyatyanı sahəyə malik olmalıdır |
| Tikinti standart və normalarına cavab verməlidir |
| Müstəqil qiymətləndiricinin müəyyən etdiyi bazar qiymətindən az olmamaq şərtilə sığortalanmalıdır (Fond tərəfindən) |